

ELMİ-METODİK MƏRKƏZ

İSLAM MAARİFİ

PEYQƏMBƏRİN ELM VƏ TƏBİƏTƏ BAXIŞLARI

FEYRUZ BAĞIROV

ELMİ-METODİK MƏRKƏZ

İSLAM MAARİFİ

“Adamları ağlına görə,
torpağı isə xalqına görə tanıyarlar.”

Akademik Həsən Əliyev.

Son illərdə Naxçıvan Muxtar Respublikasının Mədəni-Maarif müəssisələrində əsaslı dəyişikliklər olmuşdur. Şəhər və rayon mərkəzlərində, o cümlədən də kəndlərdəki klub, kitabxana, muzey və asudə vaxt mərkəzləri yenidən qurulmuş, park və xiyabanlarda iməciliklər keçirilərək yaşıllaşdırma işləri aparılmışdır.

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi tabeliyindəki müəssisələrin işçiləri, hər həftənin şənbə günlərində iməciliklər keçirərək şəhər ətrafı ərazidə əkdikləri meyvə tinglərinə qulluq edib və Muxtar Respublikanı yaşıllıqlar diyarına çevrilmişlər.

İslam maarifində peyqəmbərin elm və təbiətə baxışları

İnsanlar yaşadıqları ərazilərdə yaşıllaşdırma işlərini görüb təbiətlə heyvanlara qayğısı İslam maarifçiliyində yalnız Məhəmməd (s.ə.s) peyqəmbərlə bağlı olmuşdur.

Bir gün Məhəmməd (s.ə.s) peyqəmbər sahəbələri ilə səfərdə ikən səhrada od yandırıb ocaq qalamalı olurlar. Peyqəmbər yoldaşlarına odun toplamaq işlərini tapşırır. Adamlar isə narazılıqla deyirlər ki; “Ey Allahın rəsulu! Bura boş bir səhradır, odun isə yoxdur.” Peyqəmbər gülümsəyərək onlara belə deyir; “Hər kəs bacardığı qədər çör-çöp yığsın”.

Sahəbələr bu minvalla çoxlu miqdarda odun toplayırlar...

“Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik (Quran, “Qaf” (50) s.ayə 9.)

Dünya insanlarının sonuncu peyqəmbəri Məhəmmədin (s.ə.s.) elm və təbiətə baxışları, təxminən 1400 il öncə öyrənilərək yazıya alınmışdır.

Bütün bunlar onu göstərir ki, İslam dini insanları şəxsi sağlamlığa, təbiət sərvətlərinin qorunmasına və dünyəvi elmlərə yiyələnməyə çağırmaqdadır.

Peyqəmbərin elm və təbiətlə bağlı kəlamlarını ilk dəfə toplayıb İngilis dilində çap etdirən hindistanlı Fəlsəfə Elmləri Doktoru A.Ə.Şöhrəverdi(1882-1935) olmuşdur.

Böyük alimlə rus yazıçısı L.N.Tolstoy(1828-1910) məktubla dostlaşaraq ondan peyqəmbərin kəlamlarını istəmişdir. Maraqlıdır ki, L.N.Tolstoy vəfat edərkən paltarının cibindən A.Ə.Şöhrəverdinin yazdığı (fransızca tərcümə) “Məhəmmədin kəlamları” adlı kitabçası tapılmışdır.

Məhəmməd (s.ə.s.) peyqəmbərin kəlamlarında insanların sağlamlığı, təbiətə qayğısı və elmlərin öyrənilməsinin vacibliyi bildirilmişdir.

Həmin kəlamlardan bir neçəsini oxucuların nəzərinə çatdırırıq;

1) Misvakla dişlərini təmizləyən müsəlman dişini təmizləməyəndən yetmiş dəfə üstündür.

2) Behiştin açarı namazdır, namazın açarı isə dəstəmazdır (əl-üzünü yuyub təmizlənməkdir.)

3) Allah insanda məntiqdən yaxşı heç bir şey yaratmamışdır...

4) Heyvanlarla davranış zamanı rəhmli olun.

5) Allah insana rəhm verib ki, dünyadakı canlılara mehribanlıq göstərilsin.

6) Balalı heyvanata mərhəmət göstərənin günahları bağışlanar.

7) Ağac əkib-becərmək sədəqə, barından yedirtmək isə ehsandır.

8) Allah pak və elmli olduğundan pak və elmliləri də sevər.

9) Alimlə cahilin məsuliyyəti eyni ola bilməz.

10) Müsəlman yer şumlayıb ağac əkməli, quşlarla heyvanlar bəhrələnməlidirlər.

11) Ölü torpağı dirildən (şumlayıb becərən), əməyinin haqqını da torpaqdan alacaqdır.

12) Əxlaqı və davranışı ilə insanların xoşuna gələn adam həqiqi müsəlmandır.

13) Taleyin əmrinə itaət edin, bir-birinizlə qarşılaşanda salamlaşın.

14) Təcrübəsi olmayan bağban bağında xurma yetişdirə bilməz.

15) Allah deyib ki;-"Mən gizli bir xəzinə idim, istədim tanınam və buna görə də insanı torpaqdan yaratdım".

16) Torpağı sevməyən vətəni sevməz.

17) Xeyirxah olmayan alim quru ağaca bənzər.

18) Ömrünü elmə sərf edən adam hər vaxt diridir.

19) Alimə hörmət-aləmə hörmətdir.

20) Bir saat elmlə məşğul olan, altmış il ibadət edəndən üstündür.

21) Elm öyrənmək üçün dünyanın ən uzağına qədər gedin.

22) Elmi beşikdən məzara qədər öyrənmək vacibdir.

23) Bilikli şəxs cahil dindardan üstündür.

24) Özünü dərk edən, Allahı da dərk edər.

25) Alimin qələminin mürəkkəbi şəhidin qanından üstündür.

26) İnsan elmlə xoşbəxtliyin zirvəsinə çata bilər.

27) Alim odur ki, elmini xalqın xeyrinə işlətsin.

28) Faydasız elm, lazımsız əşya kimidir.

29) Addım atarkən zərif həşəratları məhv etmək günahdır.

30) Bitkilərə də uşaq kimi qulluq edilməlidir.

Bəşərin sonuncu peyqəmbəri Məhəmməd (s.ə.s.) Məkkədən Mədinəyə köçərkən (hicrət edərkən) məkkəli bütpərəstlər tərəfindən təqib olunmuşdur. Peyqəmbərin gizləndiyi yolüstü mağaranın girişində Allahın möcüzəsi ilə göyərçin yuvasında bala çıxarmış və hörümçək də tor salmışdır. Təqib edən atlılar mağara girəcəyindəki təbii mənzərəni görərək içəri girmədən geri qayıtmışlar. Beləliklə də Məhəmməd (s.ə.s.) peyqəmbər sağ-salamat Mədinəyə gəlib çatmışdır. Bütün bunlar isə tarixi həqiqət kimi, Allahın təbiətlə məxluqata məhəbbətinin təzahürüdür.

Son illərdə Naxçıvan Muxtar Respublikasında ekoloji problemləri nizamlamaq üçün ekoloji maarifləndirmə tədbirləri vüsət almışdır. Cari ilin birinci yarısına qədər mədəni-maarif müəssisələri yaşıllaşdırma işlərində öndər olmuşlar. Belə ki, Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan müəssisə işçiləri iməcliklər keçirərək 208 hektar sahədə meşəsalma işləri aparmaqla və 190 mindən çox ağac tingləri əkmişlər.

2008-ci ilin may ayında Dünya İslam Konfransı Təşkilatına üzv ölkələrin nümayəndələri Naxçıvan Muxtar Respublikasında olmuş, "Dini və sağlamlıq turizmi mənəvi və fiziki istirahətin təşkili" mövzusunda beynəlxalq konfrans keçirmişlər. Konfransda muxtar respublikanın turizm imkanlarının təbliğində mühüm əhəmiyyətə malik işləri vurğulamışlar.

2008-ci ilin yarısınadək muxtar respublikaya xarici ölkələrdən 98 min nəfər turist gəlməklə, keçən illə müqayisədə bu rəqəm 79 faiz artmışdır.

Muxtar Respublikada dini və tarixi abidələrin bərpasına dövlət qayğısı göstərildiyindən ərazidəki "Əshabi-Kəhf" pirində, Naxçıvan şəhərindəki Zaviyyə və Cümə məscidlərində habelə Nuh peyqəmbərin məzarüstü tarixi abidələri ətrafında yaşıllaşdırma işləri aparılmışdır.

Müqəddəs "Əshabi-Kəhf" ərazisində və ora gedən yol boyunca 30 hektardan artıq sahədə meyvə və bəzək kolları əkilmiş, 35 hektar sahədə isə üzümlüklər salınmışdır. Əraziyə H.Əliyev adına su anbarından arx vasitəsilə su çəkilmişdir.

“... Biz göydən yağış yağdırdıq və yerdə hər gözəl olan cütdən bir bitki yaratdıq.”

(Quran, “Loğman” (31) s.ayə 10.)

Bağırov Feyruz

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi
Elmi-Metodik Mərkəzin şöbə müdiri